**Azərbaycan Xalq Parlamentinin**
**İnsan Hüquqları Komitəsi haqqında**
**Əsasnamə**

## 1. Azərbaycan Xalq Parlamentinin İnsan Hüquqları Komitəsinin təşkili və fəaliyyətinin əsasları

1.1. Azərbaycan Xalq Parlamentinin (bundan sonra AzXP) Nizamnaməsinin 6.4 maddəsinə əsasən AzXP İnsan Hüquqları Komitəsini təşkil edir.

1.2. AzXP İnsan Hüquqları Komitəsi qanunvericilik təşəbbüsü qaydasında insan hüquqları sahəsində AzXP sessiyasına təqdim edilmiş qanun və qərar layihələrinin ilkin baxılmasını təşkil etmək, onların AzXP-nin müzakirəsinə çıxarılmasını təmin etmək və bu Əsasnamədə nəzərdə tutulmuş başqa vəzifələri həyata keçirmək məqsədi ilə fəaliyyət göstərirlər.

1.3. AzXP İnsan Hüquqları Komitəsinin hüquqları, təşkili qaydası, səlahiyyət müddəti, fəaliyyət prinsipləri, tərkibi, iclaslarının aparılması qaydası, onun Sədrinin və İdarə Heyətinin səlahiyyətləri "Azərbaycan Xalq Parlamenti Reqlamenti"nin 24.4 – 24.8 maddəsi ilə müəyyən edilir.

## 2. AzXP İnsan Hüquqları Komitəsinin funksiyaları

2.1. AzXP İnsan Hüquqları Komitəsi aşağıdakı funksiyaları həyata keçirir:

2.2. AzXP İnsan Hüquqları Komitəsi üzvlərinin təşəbbüsü ilə qanun və qərar layihələrini hazırlayır, qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və AzXP-də baxılmasına dair rəy verir;

2.3. AzXP İnsan Hüquqları Komitəsi qanunvericilik təşəbbüsü qaydasında Komitəyə təqdim edilən qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və AzXP-də baxılmasına dair rəy verir;

2.4. AzXP-nin qərarı ilə insan hüquqları ilə bağlı ictimai müzakirəyə çıxarılmış qanun layihəsinə dair daxil olmuş təklifləri ümumiləşdirir və AzXP-yə təqdim edir;

2.5. Azərbaycan Respublikası Konstitusiyası, AzXP Nizamnaməsi və AzXP Reqlamenti ilə AzXP İnsan Hüquqları Komitəsinin səlahiyyətlərinə daxil olan məsələlərə baxır və bu barədə rəy verir;

2.6. AzXP-nin illik planına dair öz təkliflərini verir;

2.7. İldə iki dəfə AzXP-nin yaz və payız sessiyalarının əvvəlində öz işi barədə hesabat verir.

**3. AzXP İnsan Hüquqları Komitəsinin fəaliyyət istiqamətləri**

3.1. AzXP İnsan Hüquqları Komitəsi insan hüquqları və azadlıqlarının təmin olunması və qorunmasına, milli və dini azlıqların statusunun müəyyən edilməsi və hüquqlarının təmin olunmasına, qaçqınların və məcburi köçkünlərin, miqrantların statusunun müəyyən edilməsi və hüquqlarının qorunmasına dair qanun layihələrini hazırlayır, AzXP-nin müzakirəsinə tövsiyə olunan və insan hüquqları və azadlıqlarına toxunan bütün qanun layihələrinə dair rəy verir;

3.2. AzXP-nin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birlikdə insan alverinə qarşı mübarizəyə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

3.3. AzXP-nin müvafiq Komitəsi ilə birlikdə media ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir;

3.4. AzXP Sədrinin tapşırığı ilə qanun və qərar layihələrinə insan hüquqları və azadlıqlarının təmin edilməsi baxımından rəy verir;

3.5. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ümumi vəziyyətini müzakirə edir və rəy verir;

3.6. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatına baxır, müzakirə edir və rəy verir;

3.7. Azərbaycan Respublikası məhkəmələri hakimlərinin öz fəaliyyətlərində insan hüquqlarına riayət etmə vəziyyətini müzakirə edir və rəy verir;

3.8. İnsan hüquqları sahəsində beynəlxlaq müqavilələrin Azərbaycan Respublikasında və dünyanın digər dövlətlərində yerinə yetirilmə vəziyyəti barədə hesabatlar hazırlayır və belə hesabatları ictimailəşdirir;

3.9. Azərbaycan Respublikasında və dünyada işgəncə hallarını araşdırır, bu barədə hesabatlar hazırlayır və rəy verir;

3.10. Azərbaycan Respublikasında və dünyada siyasi məhbüslarla bağlı vəziyyətin monitorinqini aparır, rəy verir;

3.11. İnsan hüquqları ilə bağlı digər məsələlərə baxır.

**4. AzXP İnsan Hüquqları Komitənin işinin təşkili**

4.1. AzXP İnsan Hüquqları Komitəsi AzXP-nin növbəti sessiyasının başlanmasına azı bir həftə qalmış növbəti sessiya üçün özünün iş planını təsdiq edir.

4.2. Komitənin sədri və İdarə Heyəti AzXP-nin Rəyasət Heyətinin aparatı ilə birgə Komitənin işini təşkil edir, komitə üzvlərini zəruri sənədlər və materiallarla təmin edir. Komitənin sədri komitənin iş planının yerinə yetirilməsinə nəzarət edir.

**5. AzXP İnsan Hüquqları Komitəsi üzvlərinin hüquqları və vəzifələri**

5.1. AzXP Nizamnaməsi və Reqlamentində göstərilən hüquq və vəzifələrdən başqa komitə üzvlərinin komitənin bütün iclaslarında həlledici səs hüququ vardır.

5.2. AzXP İnsan Hüquqları Komitəsinin üzvü komitənin müzakirə etdiyi bütün məsələlərə dair fikrini bildirə, təkliflərini və qeydlərini verə bilər. Komitənin qəbul etdiyi qərarı ilə razı olmadıqda komitənin üzvü xüsusi rəylə çıxış edə bilər.

**6. AzXP İnsan Hüquqları Komitənin iclasları**

6.1. AzXP İnsan Hüquqları Komitənin iclasları bir qayda olaraq açıq keçirilir. Müstəsna hallarda komitənin qərarı ilə onun qapalı iclasları keçirilə bilər.

6.2. AzXP İnsan Hüquqları Komitənin açıq iclaslarında dəvət olunmuş şəxslər və media subyektlərinin nümayəndələri iştirak edə bilərlər.

6.3. AzXP İnsan Hüquqları Komitənin iclasına qanunvericilik təşəbbüsü qaydasında qanun və qərar layihələrini təqdim etmiş

ictimaiyyət nümayəndələri, yerli özünüidarə orqanlarının nümayəndələri, siyasi partiyaların, həmkarlar ittifaqları birliklərinin, ictimai birliklərin nümayəndələri, alimlər, ekspertlər, mütəxəssislər və iştirakı zəruri hesab olunan başqa şəxslər dəvət oluna bilər. Bu halda komitə dəvət olunan şəxsləri müzakirə olunan sənədlərlə təchiz edir.

**7. AzXP İnsan Hüquqları Komitənin qəbul etdiyi aktlar**

7.1. AzXP İnsan Hüquqları Komitənin müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

7.2. AzXP İnsan Hüquqları Komitənin özü hazırladığı qanun və qərar layihələrinə dair qərarlar, komitəyə təqdim olunmuş qanun və qərar layihələrinə dair işə rəylər qəbul edir.

7.3. AzXP İnsan Hüquqları Komitəsi öz işi barədə hesabatlar hazırlayır.

7.4. AzXP İnsan Hüquqları Komitənin hesabatı komitənin qərarı ilə qəbul edilir.

7.5. AzXP İnsan Hüquqları Komitənin qərarları və rəyləri komitənin tərkibinə daxil olan üzvlərin yarısından çoxu qərar və ya rəyin lehinə səs verdikdə qəbul edilmiş sayılır.

**8. AzXP İnsan Hüquqları Komitənin iclaslarının protokolları və stenoqramları**

8.1. AzXP İnsan Hüquqları Komitənin iclası stenoqrama alınır və protokollaşdırılır (komitələrin iclasının protokolu və stenoqramı müvafiq sənədlərin müzakirəsini və onlar barədə qərar qəbul edilməsini təsdiq edən rəsmi sənədlərdir).

8.2. AzXP İnsan Hüquqları Komitənin iclasının protokolunda aşağıdakılar göstərilir:

8.2.1. İclasın keçirilməsi yeri, vaxtı, protokolun nömrəsi;

8.2.2. İclasda sədrlik və iştirak edən komitə üzvlərinin, habelə dəvət olunmuş şəxslərin adı, soyadı;

8.2.3. İclasın gündəliyi;

8.2.4. İclasda yayılan sənədlər;

8.2.5. Gündəlik üzrə çıxış edənlər;

8.2.6. Gündəlikdə duran məsələlər üzrə səsvermənin nəticələri;

8.2.7. Qəbul olunmuş akt.

8.3. AzXP İnsan Hüquqları Komitənin üzvünün xüsusi rəyi varsa, həmin xüsusi rəy haqqında məlumat protokolda göstərilir, xüsusi rəy isə stenoqrama əlavə edilir.

8.4. AzXP İnsan Hüquqları Komitənin protokolunu iclasda sədrlik edən imzalayır.

**9. AzXP İnsan Hüquqları Komitənin fəaliyyətinin işıqlandırılması**

9.1. AzXP İnsan Hüquqları Komitənin fəaliyyəti medialarda işıqlandırılır.

9.2. AzXP İnsan Hüquqları Komitənin iclasları haqqında məlumatlar “azxp.orq” saytında dərc edilir.

9.3. AzXP İnsan Hüquqları Komitənin iclasında audio, video yazısı, foto və kino çəkilişi Komitənin razılığı ilə həyata keçirilə bilər.

**10. AzXP İnsan Hüquqları Komitənin fəaliyyətinin təmin edilməsi**

10.1. AzXP İnsan Hüquqları Komitənin hüquqi, təşkilati, analitik, informasiya, kargüzarlıq, maddi-texniki təminatını AzXP Rəyasət Heyətinin Aparatı həyata keçirir.

**11. AzXP İnsan Hüquqları Komitənin ekspertləri**

11.1. AzXP İnsan Hüquqları Komitənin qanun və qərar layihələrinin hazırlanmasında və ya onlara rəy verilməsində mütəxəssislərin cəlb edilməsi məqsədilə, habelə komitəyə daxil olan materialların təhlilinə və ümumiləşdirilməsinə kömək etmək üçün komitə ekspertlərindən istifadə edə bilər. Ekspert komitədə ictimai əsaslarla işləyəyir.